Proqram çərçivəsində sentyabrın 24-dən 25-dək Lənkəran rayonunda Masallı, Astara, Lerik, Yrdımlı, Cəlilabad və Biləsuvar rayonları üzrə ümumtəhsil və ali məktəblərdə rus dili fənnini tədris edən təlimçi müəllimlər üçün metodik seminar və dəyirma masa keçirilməsi nəzərdə tutulub. Tədbirdə Rusiyanın Azərbaycan Respublikasındakı səfirliyin nümayəndələri, Rusiyadan ölkəmizə gəlmiş pedaqoji elmlər doktoru İ. B. Avdeyeva, filologiya elmləri doktoru, professor B. İ. Annuşkina, "Rus dili. Kurslar" nəşriyyatı redaksiyasının direktoru, filologiya elmləri namizədi N.O.Kozina, Sankt-Peterburq konservatoriyasının professoru Q. Q. Mališev və digər rəsmi qonaqlar iştirak edəcəklər.

Seminar sentyabrın 24-də saat 15-də Lənkəran Dövlət Universitetində başlayacaq və ertəsi gün öz işini davam etdirəcək. Sentyabrın 25-də saat 18-də ölkəmizdə Rusya kitab sərgisi çərçivəsində keçirilən tədbirlərin yekunu olaraq Lənkəran Dövlət Universitetində mətbuat konfransı keçiriləcəkdir.